AzerGold

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Korporativ Sosial Məsuliyyət Komitəsinin İllik Hesabatı

BAKI – 2022

## MÜNDƏRİCAT

**GİRİŞ**......3
Sosial layihələr......4-6
Ekoloji layihələr......7
Tarixi-mədəni irsə töhfə......8
İanə......8
Maddi yardım......9
Sosial yardım......9

# GİRİŞ

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (QSC) Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilmişdir. “AzerGold” QSC ölkə ərazisində əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik “AzerGold” QSC-nin idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Cəmiyyət fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və icmalara, habelə onların ayrılmaz hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır və bu təsirin ədalətli şəkildə tənzimlənməsi Cəmiyyətin Sosial Təsir və Məsuliyyət Siyasəti çərçivəsində həyata keçirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət Siyasəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, “Layihələrin maliyyələşdirilməsi zamanı ekoloji və sosial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarəçiliyi üzrə Ekvator Prinsipləri”, “BMT-nin biznes və insan hüquqları üzrə Rəhbər Prinsipləri”nin tələbləri nəzərə alınmaqla formalaşdırılır və davamlı olaraq təkmilləşdirilir.

“AzerGold” QSC-nin Sosial Təsir və Məsuliyyət Siyasəti Cəmiyyətin nəzdində 2017-ci ilin oktyabrından etibarən fəaliyyətə başlamış Korporativ Sosial Məsuliyyət (KSM) Komitəsi tərəfindən formalaşdırılır və icra edilir. Komitə kollegial orqandır və dövri olaraq fəaliyyəti barədə hesabatlar dərc edir. Komitə tərəfindən Sosial Təsir və Məsuliyyət Siyasətinin istiqamətləri üzrə icrası 1 il və daha artıq müddət tələb edən və ya hər il dövri olaraq keçirilməsi planlaşdırılan qısa və uzunmüddətli layihələr icra edilir.

Sözügedən siyasət çərçivəsində 2022-ci il üzrə layihələrin səmərəli icrasının təmin edilməsi məqsədi ilə Korporativ Sosial Məsuliyyət Komitəsinin üzvlərinin yerli sakinlərlə Daşkəsən rayonunda 3, Göygöl və Balakən rayonlarında 1 görüşü keçirilmiş, rayonların, eləcə də ətraf kənd və qəsəbələrdə yaşayan əhalinin sosial ehtiyacları müəyyənləşdirilmiş, daha sonra kənd sakinlərinin müraciətləri dinlənilib, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılıb. Müraciətlərlə bağlı müvafiq addımların atılması, vətəndaşların qaldırdıqları məsələlərin araşdırılması və mövcud qanunvericilik çərçivəsində həll edilməsi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

## SOSİAL LAYİHƏLƏR

**Kanadalı geoloq Robert Stivensin "Faydalı qazıntıların kəşfiyyatı və dağ-mədən sənayesinin əsasları" kitabının tərcümə və nəşr edilməsi, təqdimat mərasiminin təşkili**

Tanınmış kanadalı geoloq Robert Stivensin "Mineral Exploration and Mining Essentials" (Faydalı qazıntıların kəşfiyyatı və dağ-mədən sənayesinin əsasları) kitabı Azərbaycan dilinə tərcümə edildikdən sonra nəfis tərtibatda nəşr edilib.

17.03.2022-ci il tarixində sözügedən kitabın təqdimat mərasimi keçirilmiş, nəşr ali təhsil ocaqları, həmçinin elmi kitabxanalara hədiyyə edilib.

Layihədə əsas məqsəd faydalı qazıntıların öyrənilməsi, tədqiqi, səmərəli idarə olunması sahəsində dünya elmində baş verən yenilikləri, əldə olunan müasir təcrübəni gənc mütəxəssislərə ana dilində aşılayaraq bu sahədə Azərbaycan dövləti, elm və təhsil müəssisələrinin həyata keçirdiyi ardıcıl fəaliyyətə töhfə verməkdir.

**Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək**

"AzerGold" QSC-nin təşkilatçılığı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Daşkəsən rayonunda "Arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi icra edilib. Layihə "AzerGold" QSC-nin aktiv hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi Daşkəsən rayonunda yerli fermerlərin arıçılıq təsərrüfatlarının inkişaf etdirilməsinə dəstək verilməsi məqsədilə icra edilib.

Belə ki, 31.03.2022-ci il tarixində Daşkəsən rayonunda fəaliyyət göstərən arıçı fermerlərlə görüş keçirilmiş, arıçılıq fəaliyyəti zamanı təsərrüfat sahiblərinin qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yolları müzakirə edilmiş, təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılaraq, təkliflər qeydə alınıb. 13-15.04.2022-ci il tarixlərində Daşkəsən rayonunda fermerlərə təlimlər keçirilib. 3 gün davam edən təlimlərdə rayonun Çovdar, Bayan, Quşçu və Zəylik kəndlərində fəaliyyət göstərən 24 nəfər arıçı fermerə layihə çərçivəsində cəlb edilmiş məsləhətçilər tərəfindən arılara yaz qulluğu, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizə metodları, beçələmə və ana arıların yetişdirilməsi qaydaları, eyni zamanda iştirakçılara dövlət qayğısı sayəsində sahibkarlığın inkişafı istiqamətində icra edilən təşkilati, hüquqi və iqtisadi tədbirlər, biznes fəaliyyəti üçün yaradılmış əlverişli mühit, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi haqqında ətraflı məlumatlar verilib. 28.04.2022-ci il tarixində təlim və praktiki məşğələlərdə iştirak etmiş arıçı fermerlər sertifikatlarla təltif olunmuş, onlara tələb olunan ləvazimatlarla tam təchiz edilmiş 120 arı ailəsi və müvafiq dərman preparatları hədiyyə edilib. Bundan başqa, Daşkəsən rayonu ərazisində nektar verən akasiya ağacları əkilib.

**Daşkəsən rayonunda Səyyar tibbi müayinə aksiyası**

"AzerGold" QSC və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Biliyinin

təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda Səyyar tibbi müayinə aksiyası keçirilib.

Belə ki, 30.05-02.06.2022-ci il tarixlərini əhatə edən, 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilən aksiyada rayonun Şadax, Quşçu, Çovdar, Çaykənd və digər kəndlərinin azyaşlı sakinləri 3 gün ərzində ödənişsiz olaraq müxtəlif tibbi xidmətlərdən yararlanmış, cərrahiyə, pediatriya, terapiya, endokrinologiya, hepatologiya, LOR, kardiologiya, urologiya, həmçinin onkologiya sahələri üzrə ixtisaslaşmış peşəkar həkim heyəti uşaqları müayinə etmiş, onlara ambulator müalicə-profilaktik xidmətlər göstəriblər. Azyaşlılar fiziki müayinələrlə yanaşı, instrumental (EXO, EKS, ultrasəs və s.), eləcə də laborator müayinələrdən yararlanıb, diaqnoza uyğun olaraq müvafiq dərman preparatları ilə təmin olunublar. Aksiyanın ilk günündə Daşkəsən rayonu ərazisində yaşayan şəhid ailələrinin üzvləri də müayinə prosesinə cəlb ediliblər. Düşərgədə körpələr üçün nağıl qəhrəmanları və cizgi filmi personajlarını canlandıran animatorlar tərəfindən əyləncəli oyunlar təşkil edilmiş, azyaşlılara müxtəlif oyuncaqlar və dərs ləvazimatları hədiyyə olunub. Layihə çərçivəsində, ümumilikdə 600 nəfərdən çox sakin müayinədən keçirilib.

## Qanvermə aksiyaları

Cəmiyyət tərəfindən irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkənlərə dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə 19.08.2022-ci il tarixində qanvermə aksiyaları təşkil edilib.

## Daşkəsəndə yeni məktəb binasının inşası

“AzerGold” QSC və Heydər Əliyev Fondu tərəfindən 15.09.2022-ci il tarixində, Bilik Günündə Daşkəsən rayonunun Səlmixan İsgəndərov adına Quşçu qəsəbə tam orta məktəbinin modul tipli yeni binası inşası tamamlanaraq istifadəyə verilib.

Belə ki, “AzerGold” QSC-nin “Çovdar” qızıl mədəninin yaxınlığında, Quşçu qəsəbəsində yerləşən məktəb binasında 80 şagirdin eyni vaxtda təhsil alması üçün zəruri şərait yaradılıb.

Layihənin icrasında əsas məqsəd Daşkəsən rayonunda təhsilin inkişafına dəstək verməkdir.

## Daşkəsəndə minifutbol, universal voleybol-basketbol meydançalarının yenidən qurulması

“AzerGold” QSC-nin törəmə cəmiyyəti – “Daşkəsən Dəmir Filiz” MMC-nin balansında olan mini-futbol, universal voleybol-basketbol meydançaları əsaslı təmir olunaraq vətəndaşların ümumi istifadəsinə verilib.

Layihənin icrasında əsas məqsəd Daşkəsən rayonunda idmanın inkişafı, uşaq, yeniyetmə və gənclərin idmana maraqlarının artırılması, onların asudə vaxtlarının səmərəli keçirilməsi, sağlam ruhda tərbiyə olunmasına dəstək verməkdir.

## Daşkəsəndə məktəblilər arasında minifutbol turniri

“AzerGold” QSC-nin törəmə cəmiyyəti – “Daşkəsən Dəmir Filiz” MMC-nin balansında olan minifutbol, universal voleybol-basketbol meydançaları yenidənqurma işlərindən sonra istifadəyə verilməsi münasibətilə minifutbol turniri təşkil edilib.

24-28.10.2022-ci il tarixlərini əhatə edən turnir “AzerGold” QSC-nin Vətən müharibəsində şəhid olmuş əməkdaşı Rauf Əsgərovun xatirəsinə həsr olunub. Yarışda Daşkəsən rayonunu təmsil edən 6 məktəb komandası iştirak etmiş. Turnirin qaliblərinə kubok, diplom, medal və xatirə hədiyyələri təqdim edilib.

Layihənin icrasında əsas məqsəd Daşkəsən rayonunda idmanın futbol növünə marağın artırılması, uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi, onların sağlam ruhda tərbiyə olunmasına dəstək verməkdir.

## “Qəhrəman Muxtar Qasımlı” sənədli filminin istehsalı

“AzerGold” QSC-nin baş sponsorluğu ilə Cəmiyyətin Vətən müharibəsində şəhid olmuş əməkdaşı Muxtar Qasımlının döyüş yolundan bəhs edən “Qəhrəman Muxtar Qasımlı” sənədli filmi istehsal edilib.

03.11.2022-ci il tarixində Nizami Kino Mərkəzində şəhid Muxtar Qasımlının xatirəsinin əbədiləşdirilməsi, yeni nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə vermək məqsədilə icra olunan sənədli film layihəsinin təqdimat mərasimi keçirilib.

## Gəncə şəhərində regional autizm mərkəzinin yaradılması

“AzerGold” QSC və Heydər Əliyev Fondunun dəstəyi, “Birgə və Sağlam” İctimai Birliyinin təşkilatçılığı ilə Gəncə və ətraf rayonlarda autizm spektr pozuntulu şəxslərin ictimai əsaslarla fərdi inkişafına dəstək, onların erkən diaqnostikası və sıx reabilitasiya almaları və maarifləndirmə işlərinin aparılması məqsədilə layihənin icrasına başlanılıb. Bu məqsədlə Gəncə şəhərində regional autizm mərkəzi yaradılmış, 14.11.2022-ci il tarixində mərkəz test rejimində fəaliyyətə başlayıb.

## Yuxarı Daşkəsən qəsəbəsinin içməli su şəbəkəsinin qurulması

“AzerGold” QSC və “Azərsu” ASC-nin birgə tərəfdaşlığı ilə Daşkəsən rayonunun Mədənçilər yaşayış massivi və Yuxarı Daşkəsən qəsəbəsinin içməli su təminatının yaxşılaşdırılması layihəsinin 2-ci mərhələsinin icrası çərçivəsində 27.12.2022-ci il tarixində “Azərsu” ASC-nin “Sutikinti” müəssisəsi ilə müqavilə bağlanılıb. Müqaviləyə uyğun olaraq 2023-cü il ərzində Yuxarı Daşkəsən qəsəbəsinin içməli su şəbəkəsinin tam qurulması nəzərdə tutulub.

## EKOLOJİ LAYİHƏLƏR

“AzerGold” QSC həyata keçirdiyi ekoloji siyasətə uyğun olaraq kəşfiyyat, hasilat və emal prosesi zamanı ətraf mühitə təsirlərin minimuma endirilməsinə çalışır. Monitorinq proqramının tələblərinə uyğun qaydada mütəmadi olaraq sahələrdə tozölçmə işləri həyata keçirilir, torpaq, su hövzələri və sututarlarından götürülən nümunələr əsasında təhlillər aparılır. İstehsalat prosesi nəticəsində yaranan bütün növ tullantılar qanuna müvafiq şəkildə idarə olunur.

### “Ağyoxuş-1” qızıl mədəni ətrafında iməcilik aksiyası

“AzerGold” QSC-nin Göygöl rayonunda yerləşən “Ağyoxuş-1” qızıl mədənində başlanılan rekultivasiya işləri çərçivəsində iməcilik aksiyası təşkil edilib.

Belə ki, 03.06.2022-ci il tarixində, 5 İyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində icra olunan layihədə “AzerGold” QSC və onun podratçı şirkətlərinin ümumilikdə 50 nəfərdən çox əməkdaşı iştirak edib. Münbit torpaq qatı bərpa edilən ərazidə 600 ədəd eldar şamı, 200 kiloqram yonca və 10 kiloqram qoz toxumu əkilib, ağac və bitki toxumlarına aqrotexniki qulluğun göstərilməsinə başlanılıb.

### Daşkəsəndə bitən nadir bitki növlərinin reintroduksiyası

“AzerGold” QSC tərəfindən 2021-ci ildən etibarən icrasına başlanılan, Daşkəsən rayonunun ərazisində bitən və “Qırmızı Kitab”a daxil edilmiş nadir və nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin çoxaldılması və onların tarixən yetişdiyi ərazilərə reintroduksiyasını özündə ehtiva edən ekoloji layihəyə yekun vurulub. Cəmiyyətin “Çovdar” mədəninin ətrafındakı dağlardan yığılmış nəsli kəsilmək təhlükəsində olan bitkilər – “Rosa Zangezura”, “Rosa Nisami”, “Pulverulenta” kimi itburnu növləri, həmçinin nadir dekorativ və dərman bitkisi olan “Frangula Grandiflora” (İriyarpaq kövrək mürdəşər) toxumlarından xüsusi qaydada yetişdirilmiş bitki kolları “Çovdar” mədəninin ətrafında yerləşən dağlarda əkilərək reintroduksiya edilib.

# TARİXİ-MƏDƏNİ İRSƏ TÖHFƏ

## Çovdar nekropolunun geniş elmi tədqiqi layihəsi

Heydər Əliyev Fondu və “AzerGold” QSC-nin dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Çovdar nekropolunda aşkar edilmiş tapıntıların geniş elmi tədqiqi istiqamətində layihənin icrası davam etdirilib.

2022-ci il ərzində arxeologiya və antropologiya sahələrində zəngin təcrübəyə malik yerli və əcnəbi mütəxəssislərin birgə əməkdaşlığı ilə nüfuzlu beynəlxalq laboratoriyalarda insan qalıqları əsasında DNT, radiokarbon, karbon və azot izotopları üzrə analizlər, həmçinin metal tapıntılar üzərində spektral analizlər aparılması davam etdirilib.

DNT analizləri Türkiyənin Hacəttəpə Universitetində, spektral analizlər isə İtaliyanın Piza şəhərində yerləşən Milli Tədqiqatlar Şurasının laboratoriyasında həyata keçirilib və nəticələr instituta təqdim edilib. Karbon və azot izotopları üzrə analizlərin isə 2023-ci ildə tamamlanması nəzərdə tutulub.

Layihənin yekunu olaraq silsilə elmi məqalələr hazırlanıb nüfuzlu beynəlxalq elmi nəşrlərdə çap ediləcək, elmi hesabat nəşri hazırlanıb geniş ictimaiyyətə təqdim ediləcək.

## Daşkəsənin tarixi-mədəni abidələrinə həsr olunmuş təqvim-kataloq layihəsi

20.12.2022-ci il tarixində “AzerGold” QSC tərəfindən tarixi-mədəni irsimizin qorunması istiqamətində həyata keçirilən layihələrin davamı olaraq Daşkəsən rayonu ərazisində mövcud olan tarix, mədəniyyət, həmçinin memarlıq abidələrinin tanıdılmasına töhfə vermək məqsədilə təqvim-kataloq hazırlanıb. Təqvim-kataloqda rayonun ölkə və yerli əhəmiyyətli tarix, mədəniyyət və memarlıq abidələrinin fotoları və onlara dair məlumatlar təqdim edilib.

# İANƏLƏR

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna (“YAŞAT” Fondu) 470,830.33 (dörd yüz yetmiş min səkkiz yüz otuz manat, otuz üç qəpik) manat vəsait ianə edilib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fonduna 37,278.21 (otuz yeddi min iki yüz yetmiş səkkiz manat, iyirmi bir qəpik) manat vəsait ianə edilib.

“Nargis” fondu tərəfindən 01.12.2022-15.01.2023-cü il tarixlərində Fəvvarələr meydanında təşkil edilən ənənəvi “Soyuq əllər, isti ürək” yarmarkasına 30,000.00 (otuz min manat) manat vəsait ianə edilib. Nəticədə ağır xəstəliklərdən əziyyət çəkən və müalicəyə ehtiyacı olan 7 nəfər uşağın əməliyyat xərclərinə dəstək göstərilib.

## MADDİ YARDIM

Komitəyə il ərzində mütəmadi olaraq müxtəlif sosial həssas qruplara daxil olan şəxslərdən maddi yardımla əlaqədar 135 sorğu daxil olub. Bu sorğuların 16.7%-i müvafiq yoxlama tədbirləri icra edildikdən sonra müsbət dəyərləndirilmiş və 47 nəfərə ölkə üzrə orta aylıq əməkhaqqı nəzərə alınmaqla, ümumilikdə 20,000.00 (iyirmi min manat, sıfır qəpik) manat məbləğində birdəfəlik maddi yardım edilib.

30.05-02.06.2022-ci il tarixlərində Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Biliyinin təşkilatçılığı, Bakı Sağlamlıq Mərkəzinin dəstəyi ilə Daşkəsən rayonunda keçirilmiş səyyar tibbi müayinə aksiyasının nəticəsində Quşçu kənd sakini, 2010-cu il təvəllüdlü Oruclu Hikmət Fikrət oğlunun “Oval dəliyin açıq qalması qüsuru” və “Sinus düyünü zəifliyi” diaqnozları qoyulmuş, iki növ əməliyyat üzrə tibbi müdaxilə edilməsinin zəruriliyi ilə bağlı rəy verilib. Cəmiyyətin 15,000.00 (on beş min manat, sıfır qəpik) manat məbləğində maliyyə yardımı ilə xəstənin iki əməliyyatı üçün xəstəxana və xüsusi tibbi sərfiyyat xərcləri qarşılanıb, Oruclu Hikmət Fikrət oğlu uğurlu əməliyyatlar nəticəsində sağlamlığına qovuşub.

## SOSİAL YARDIM

30.04-02.05.2022-ci il tarixlərində Ramazan bayramı münasibəti ilə Göygöl rayonunun Tülallar, Daşkəsən rayonunun Şadax adlanan ərazisində, Quşçu və Bayan kəndlərində yaşayan 250-dən çox aztəminatlı ailəyə gündəlik istehlak səbətinə daxil olan müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları paylanılıb.

27.09.2022-ci il tarixində Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizin anım günü ərəfəsində Daşkəsən rayonunda yaşayan 34 şəhid ailəsinin hər birinə 300.00 (üç yüz manat, sıfır qəpik) manat dəyərində maddi yardım ianə edilmiş, həmçinin ərzaq məhsullarından ibarət 34 ədəd ərzaq bağlaması təqdim olunub.